Hürriyyət
SİZİN ÜÇÜN QƏZET
№11 (3350) 18 Mart / 2025-ci il
www.hurriyyet.az; / hurriyyet@mail.ru



# Tarixə düşən qəhrəmanlıq

## Şəhid Tosif Abdullayev seçdiyi peşəyə görə hər zaman qürur duyub, bunu özünə şərəf bilib...



**Ürəyi Vətən eşqi ilə döyünən Tosif Abdullayev 44 günlük haqq savaşımız başlayan andan göz qırpmadan yağıya qarşı döyüşə girib. Son nəfəsə qədər dığaların kabusuna çevrilən Tosif ömrünün 22-ci baharında əbədiyyətə qovuşsa da, qəhrəmanlığı dillərdə dastana dönüb. İndi təkcə dünyaya göz açdığı Cəlilabad rayonunun Qara Kazımlı kəndində deyil, bütün Azərbaycan xalqı onu əsl övlad kimi ürəyində bəsləyir. Harada bir günəş müqəddəsliyi var, qəhrəman Vətən sevdalısının sorağı oradan gəlir. Əlçatmaz, ünyetməz göylərdə parlaq ulduz ömrünü yaşayan Tosif Abdullyev dövlət tərəfindən də "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medallarına layiq görülüb.**

Bəli, erməni dığaların xalqımıza qarşı apardığı yersiz torpaq iddialar , Qarabağımızın ədalətsiz işğalı bütün qeyrətli Vətən övladları kimi Tosifi də narahat edib. Odur ki, 2017-ci ildə əsgərlik yaşı çatanda yağıdan qisas almaq məqsədilə ordu sıralına gedib. Cəbhə bölgəsinə düşüb, burada adına can dediyi doğma Azərbaycanın keşiyində ayıq-sayıq dayanıb, eləcə düşməndən qisas almaq üçün məqam axtarıb. Xidmət etdiyi hərbi hissədə cəsurluğu, qorxmazlığı, vətənpərvərliyi, ən əsası düşünülmüş ağıllı hərəkətləri ilə böyük hörmət sahibi olub. Təlimlərdə xüsusi fəallıq göstərib. Ürəyində bir istək vardı: mübarizə meydanda mənfur yağını qırıb zəbt edilmiş Vətən torpaqlarının və şəhidlərin qisasını almaq. Həmişə də əsgər yoldaşlarına deyib: "Qarabağımızın torpağına-daşına şəhid qanı həkk olunub. Unutmaq olmaz ki, erməni dığaların belə bir müqəddəs yerə ayaq qoyması günahdır. Vətən öz qeyrətli övladlarından əsir Qarabağın azadlığını istəyir."

Tosif Abdullayev üzüağ əsgərliyini başa vurub. Lakin Vətənin bir parçası düşmən tapdağında olduğu halda dalda-bucaqda gün keçirməyi heç cür şəxsiyyətinə sığışdıra bilməyib. Elə Qarabağın azadlığı naminə həyatını hərbiyə bağlayıb. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin Ağdam rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətə başlayıb. Aldığı tapşırıqları, xidməti vəzifəsini ləyaqətlə yerinə yetirib. Erməni dığalarına öz gücünü göstərməkdən ötrü cəbhə bölgələrində keçirilən sınaq təlimlərdən uğurla çıxıb. Qanında Vətən eşqi, torpaq sevgisi olan Tosif Abdullayev seçdiyi peşəyə görə qürur duyub, bunu özünə şərəf bilib. Və məqamı gələndə son damla qanına qədər nankor erməni dığalarla vuruşub qisas alacağını deyib. Bunu etməyi isə Vətən qarşısında ən müqəddəs borcu sayıb. Həmçinin onu da bildirib ki, torpaq onun yolunda şəhid olmağı bacaran oğulların çiyinlərində Vətən olur. Ali Baş Komandanın əmr olsa, biz mütləq qələbə qazanacağıq.

2020-ci il sentyabrın 27-də Qarabağın azadlığı uğrunda qızğın, qanlı müharibə başlanıb. İlk gündən Tosif ən qaynar nöqtələrdə düşmənlə döyüşə girib. Göstərdiyi hünər, yağıya vurduğu zərbələr gündən-günə artıb. Neçə-neçə ağır döyüşdən uğurla qayıdıb Tosif. Vətən sevgisi, qəhrəmanlığı yeni-yeni zəfərlərlə nəticələnib. Oktyabrın 14-də Suqovuşanda son gülləsinə kimi düşmənə göz açmağa imkan vermir. Özü şəhid olsa da, daha bir zəhər bayrağımız göylərə ucalıb.

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**